ISSN: 2663-4619
e-ISSN: 2708-986X

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

DOI: https://doi.org/10.36719/2663-4619/126/8-14

**Zəhra Allahverdiyeva**
Azərbaycan Milli Elmlər Akademiyası
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-8697-0395
zahra.allahverdiyeva@mail.ru

## Nizami davamçısı Xacu Kirmaninin həyat və yaradıcılığı

### Xülasə

Dahi Azərbaycan şairi Nizami Gəncəvi sənətinin istedadlı davamçısı Xacu Kirmaninin həyatı və ədəbi irsinin öyrənilməsinin zəngin tarixi vardır. Kirmaninin həyatı və yaradıcılığı haqqında ilkin məlumatları orta əsr təzkirəçiləri vermişlər. Həmdullah Mustafa Qəzvini, Dövlətşah Səmərqəndi, Əlişir Nəvai, Molla Abdünnəbi Fəxr əz-Zəmani Qəznəvi və başqaları Xacu Kirmaninin həyatı və şəxsiyyəti haqqında əhəmiyyətli məlumatlar vardır. Dünya şərqşünaslığında Xacu Kirmaninin həyat və yaradıcılığına dair müxtəlif problemlər ətrafında — Ç.Rye, P.Xammer, F.Erdman, Şefer, Pitsi, E.Braun, A.Krımski, Y.E.Bertels, Y.Ripka, Z.Səfa, M.Moin, Ə.S.Xansari, S.Nəfisi, K.Ayni, S.N.Kirmani, F.Köprülü, N.Sayfiyev, H.Araslı, A.S.Ləvənd, Q.Əliyev, M.Kazımov, M.Məhəmmədi, B.Quliyeva və başqa alimlərin əhəmiyyətli tədqiqatları mövcuddur.

Təqdim olunan məqalədə Əmir Xosrov Dəhləvidən sonra, Nizami Gəncəvi *Xəmsə*sini XIV əsrdə ikinci olaraq davam etdirən Xacu Kirmaninin həyatı və yaradıcılığı üzərində bəzi məqamlara toxunmuşuq.

***Açar sözlər:*** *Xacu Kirmani, Nüsey Kuhi, Təbriz, Hülaku, Kaziruni*

**Zahra Allahverdıyeva**
Azerbaijan National Academy of Sciences
Nizami Ganjavi Institute of Literature
Doctor of Philosophy in Philology
https://orcid.org/0000-0002-8697-0395
zahra.allahverdiyeva@mail.ru

## Nizami's Successor the Life and Work of Khaju Kirmani

### Abstract

There is a rich history of studying the life and literary heritage of Khaju Kirmani, a talented follower of the art of the great Azerbaijani poet Nizami Ganjavi. The initial information about Kirmani's life and work was provided by medieval chroniclers. Hamdullah Mustafa Qazvini, Dovlyatshah Samarkandi, Alisher Navoi, Molla Abdunnabi Fakhr az-Zamani Qaznavi and others have significant information about the life and personality of Khaju Kirmani.


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

In world oriental studies, there are significant studies by scholars such as C.Rye, P.Khammer, F.Erdman, Schaefer, Pitsey, E.Braun, A.Krymsky, Y.E.Bertels, Y.Ripka, Z.Safa, M.Moin, A.S.Khansari, S.Nafisi, K.Ayni, S.N.Kirmani, F.Köprülü, N.Sayfiyev, H.Araslı, A.S.Levand, G.Aliyev, M.Kazimov, M.Mahammadi, B.Guliyeva and others on various problems related to the life and work of Khaju Kirmani, who was the second to continue Nizami Ganjavi's *Khamsa* in the 14th century after Amir Khosrov Dahlevi.

***Keywords:*** *Khaju Kirmani, Nusey Kuhi, Tabriz, Hulagu, Kaziruni*

## Giriş

Dahi Azərbaycan şairi Nizami Gəncəvi sənətinin istedadlı davamçısı Xacu Kirmaninin həyatı və ədəbi irsinin öyrənilməsinin zəngin tarixi vardır. Kirmaninin həyatı və yaradıcılığı haqqında ilkin məlumatları orta əsr təzkirəçiləri vermişlər. Həmdullah Mustafa Qəzvini, Dövlətşah Səmərqəndi, Əlişir Nəvai, Molla Abdünnəbi Fəxr əz-Zəmani Qəznəvi və başqaları Xacu Kirmaninin həyatı və şəxsiyyəti haqqında əhəmiyyətli məlumatlar vardır. Dünya şərqşünaslığında Xacu Kirmaninin həyat və yaradıcılığına dair müxtəlif problemlər ətrafında – Ç.Rye, P.Xammer, F.Erdman, Şefer, Pitsi, E.Braun, A.Krımski, Y.E.Bertels, Y.Ripka, Z.Səfa, M.Moin, Ə.S.Xansari, S.Nəfisi, K.Ayni, S.N.Kirmani, F.Köprülü, N.Sayfiyev, H.Araslı, A.S.Ləvənd, Q.Əliyev, M.Kazımov, M.Məhəmmədi, B.Quliyeva və başqa alimlərin əhəmiyyətli tədqiqatları mövcuddur.

Təqdim olunan məqalədə Əmir Xosrov Dəhləvidən sonra, Nizami Gəncəvi *Xəmsə*sini XIV əsrdə ikinci olaraq davam etdirən Xacu Kirmaninin həyatı və yaradıcılığı üzərində bəzi məqamlara toxunmuşuq.

**Tədqiqat**

Xacu Kirmani 1281-ci ildə (hicri-689) Kirman şəhərində anadan olmuşdur. Tədqiqatçıların əksəriyyəti bu tarixi Xacunun özünün *Gül və Novruz* əsərinin sonunda verdiyi məlumata əsasən müəyyənləşdirmişlər. Şair həmin əsərində yazır:

رسیده ماه ذیلحجه بعشرین
ببام اورده کردون خشت زرین
زهجرت ششصد و هشتاد و نه سال
شده پنجاه روز از ماه شوال
من از کتم عدم بر داشتم راه
سمن زار وجودم شد چرا کاه
(Xacu, 1971, s. 273)

Zilhiccə ayının 20-si yetişdi,
Fələk qızıl külçəsini göyə qaldırdı.
Hicrətdən altı yüz həştad doqquz il,
Şəval ayından on beş gün keçmişdi.
Mən sirli ədəmdən yola düşdüm,
Səmənzar (yaşıl) vücudum nədən saman oldu?

Bu beytlərdəki tarixə əsasən, Xacu Kirmani özünün hicri 689-cu ildə şəvval ayının 15-də anadan olduğunu göstərir. Buna baxmayaraq, şairin doğum tarixi ətrafında tədqiqatçıların fikri yekdil deyildir. Belə ki, yuxarıdakı beytlərə əsasən, Hüseyn Kuhi şairin *"hicri 689/m.1281-ci ilin zilhiccə ayında doğulduğunu"* (Kuhi, 1927, s.د) göstərmişdir. Əli Nəzmi isə bu tarixi 10 il əvvələ çəkərək, şairin *"679-cu il şəvval ayının 15-də anadan olduğunu"* (Nəzmi, 1990, s. 91) olduğunu söyləmişdir.

Xacunun ata-anası Kirmanın sayılıb –seçilən zadəganlarından olmuş, hələ uşaqlıq vaxtından onu əsilzadələrə məxsus "Xacə" deyə çağırmışlar. Səid Nəfisi hicri 1307/m.1928-ci ildə qələmə aldığı - " نخلبند شعرا " احوال و منتخب اشعار خواجوى كرمانى - ("Şairlərin nəxlbəndi" - Xacu Kirmaninin həyatı və seçilmiş şeirləri) adlı əsərində şairin "Xacu" təxəllüsü ətrafında araşdırma aparmşdır. Müəllifin

yazdığına əsasən, "Xacu- təxəllüsü -"Xacə"- sözünün incə, əzizləmə formasıdır və şair həmin adı özünə təxəllüs götürmüşdür" (Səid Nəfisi, 1928, s. 8).

Xacunun əsərlərindən məlum olur ki, onun bütün uşaqlığı Kirmanın ziyalı şəxsiyyətləri, xüsusən şairlər arasında keçmiş və ustad müəllimlərdən dərs almışdır. Bir çox tədqiqatçılar ona şairlik ilhamının uşaqlıqdan verildiyini qeyd etmişlər.

Xacu "Rövzətül-ənvar" əsərində "Kiçik yaşımda yuxuda gördüyüm bir mələk və onun təbiri" hekayəsində təsvir edir ki, *"kiçik yaşlarımda, səba yeli əsdiyi zaman vəqtimin ayinəsində səfa var idi. Müəllimimin söhbəti ilhamımı qəm dağıdan rüzgar kimi oyadırdı. Bir löbət camallı (mələk) yuxuma girdi və xəbər verdi: Ey şirin sözlü tuti! Sən məliki- süxəndan olacaqsan. Əqlin, kamalın göylərə bülənd olacaqdır"* (Xacu, 1991, s. 42).

Xacu ilk təhsilini Kirmanda almışdır. Daha sonra Səid Niyaz Kirmaninin göstərdiyi kimi, *"O, ömrünün mühüm bir hissəsini, 20 ilə yaxın dövrünü elm və təhsil almaq və dövrü haqqında məlumat toplamaq məqsədilə müxtəlif şəhərlərə səyahətlər etməklə keçirmişdir" (Səid Niyaz, 1991, s. 18).*

Səid Nəfisi, Bastani Parizi, Hüseyn Kuhi Kirmani, Əli Nəzmi, Səid Niyaz Kirmani, Bilqeys Quliyeva kimi alimlər şairin həyatına və dövrünə dair araşdırmalarda onun Şərqin bir sıra mədəniyyət mərkəzlərinə, o cümlədən, Məkkə, Təbriz, Marağa, İsfahan, Şiraz, Bağdad, Misr və başqa şəhərlərə səfər etdiyini, görkəmli sufilərlə görüşdüyünü qeyd etmişlər.

Qeyd etmək lazımdır ki, Xacunun əsərləri həmçinin onun həyatı və səfərlərinin salnaməsidir. "Humay və Humayun"da yazır:

چو افتاده آهوی سردر کمند
درین شهرتاکی شوی شهربند
برو ترک ین محنت آباد گیر
لب دجله و راه بغداد گیر
ز هر گوشه درمان دردی طلب
ز هر چشمه ای آبخوردی طلب

*(Xacu, 1991, s. 324)*

*Bir ahu kimi başın kəməndə düşüb,*
*Bu şəhərdə nə vaxtadək bağlanacaqsan?*
*Bu möhnətli yeri tərk elə,*
*Dəclə kənarını və Bağdad yolunu tut.*
*Hər guşədən dərdinə dərman istə,*
*Hər bir çeşmədən su içmək istə.*

Ömrünün gənc çağlarında səyahətlərə çıxan şair "Xəmsə"yə daxil etdiyi ilk məsnəvisi "Humay və Humayun" da (1332) –*"Bu möhnətli yeri tərk elə; Dəclə kənarını, Bağdad yolunu tut" (Xacu, 1991, s. 324)* söyləyən şair Kəbəni ziyarət edib Bağdad şəhərinə gəlmiş, burada dövrünün görkəmli şeyx və ədibləri ilə görüşmüş, Bağdad ədəbi mühiti onun dünyagörüşü və yaradıcılığına mühüm təsir göstərmişdir. Özünün məşhur "Risalətül-Badiyə" əsərində "Qüdsülruh kimi qüds aləminə üz tutub müqəddəslərlə ülfət bağladığını və hicaz məqsədilə "İraqın böyükləri ilə" səfərə çıxdığını söyləyən Xacu Kirmani "Gövhərnamə" əsərində qeyd etdiyinə əsasən, Bağdad şəhərinə həm *"dini elmlərin mərkəzi" (Xacu, 1991, s. 246)* kimi baxmış, həm də buranın tarixi, ədəbiyyatı və folkloru ilə də yaxından tanış olmuşdur.

Xacunun səyahətlərini o dövrün məqbul hadisəsi kimi qəbul edən Səid Niyaz Kirmani qeyd edirdi ki, onun yaxın və uzaq səyahətləri iki səbəb üzündən - elm və təhsil almaq və öz dövrü, mühiti haqqında məlumat toplamaq məqsədi daşıyırdı. Xacu bu dövrdə padşahların sarayındakı şairlərin içərisində diqqəti cəlb edən modern sənətkarlardan biri idi, onu həm maddi cəhətdən təmin edirdilər, həm də əsərlərinin yayılmasına təminat verirdilər, beləcə, öz əsərlərini asan tərzdə xalqa çatdıra bilirdi. Beləliklə, o , *"Böyüklük və izzət əldə etmək üçün dar mühitdən geniş vadiyə səfər etdi, su*

*içdiyi hər çeşmədən süzülüb axdı və bu cəhətlərinə görə, istedadlı zəka sahibi oldu, fikir və ideyları yeni oldu" (Səid Niyaz,1991, s. 8).*

Azərbaycan alimi Bilqeys Quliyeva Xacu Kirmaninin həyatı və səfərləri haqında yeni və əhəmiyyətli məlumat verərək yazır: *"Xacunun Kirmandakı həyatı tamamilə hamar olmamışdır. Şair, görünür, böyük maddi çətinliklər yaşayıb, şəhəri haqqında böyük hərarətlə danışsa da, buna baxmayaraq, tez-tez taleyindən gileylənir, tez bir zamanda səfərə çıxmaq arzusunu bildirir" (Quliyeva, 2010, s. 37).*

Onu qeyd etmək vacibdir ki, Xacu Kirmani özü səyahətə can atmasının bir səbəbini də müqəddəs ziyarətgahlara səfər etməkdə və qələmini daha da püxtələşdirmək niyyətində olduğunu obrazlı şəkildə "Rövzətül-ənvar" əsərində belə ifadə etmişdir:

*در سرم افتاد هوای سفر*
*وآمدم از خانهٔ صورت بدر*
*غوطه به دریای معانی زدم*
*خیمه به صحرای امانی زدم*
*عزم رحیل از دلم آرام برد*
*مصری کلکم به ره شام برد*
*کرد دلم جان مقدس سبیل*
*در حرم قدس به بوی خلیل*

*(Xacu, 1991, s. 97)*

*Başıma səfər havası düşmüşdü,*
*Və surət evindən kənara çıxdım.*
*Mənalar dəryasına üzdüm,*
*Oman səhrasında çadır qurdum.*
*Getmək əzmi könlümün rahatlığını aldı,*
*Misiri qələmim məni Şam yoluna apardı.*
*Könlümü müqəddəs cana -*
*Qüdsül-hərəmdə Xəlilin ətrinə ehsan etdim.*

Şair gəzdiyi ölkələrdə insan cəmiyyətinin dərd və ağrıları ilə üzləşmiş, haqsızlıq və zülmün ədalət üzərində təntənəsini görüb könlü qubar bağlamış, bu dünyada ədalət axtarmış, öz yaradıcılığını dövrün sufi-humanist dünyagörüşü ilə zənginləşdirmiş, əsərlərində zülm və ədalətsizliyə qarşı kəskin etirazını bildirmişdir.

XIV əsrdə Əmir Xosrovdan sonra ikinci olaraq, Nizami "Xəmsə"sinə cavab yazmış Xacu Kirmani istedadı və zəkasına görə öz müasirləri arasında seçilən sənətkardır. Şairin müasirləri - Xacə Salman Savəci, Nasir Buxari, Təbib Şirazi, Mövlana Müzəffər və başqa şairlər məşhur idilər. Dövlətşah Səmərqəndi bu şairləri "Sultan Əbu Səidin müasirləri olan şairlər" adlandırırdı. Bu şairlər içərisində Xacu Kirmanidən başqa kimsə Nizami Gəncəvi "Xəmsə" sinə bütöv şəkildə nəzirə, yaxud cavab yazmağa girişməmişdir. Onların arasında Xacu Kirmaninin müasiri Bağdad sarayına - Hülaku xanı Şeyx Həsən Nuyana (1336-1356) və onun oğlu Sultan Üveysə yaxın olan Salman Savəci seçilirdi. Məlumdur ki, Salman Savəci həmçinin Nizami ədəbi məktəbinə mənsub sənətkardır. Onun "Xəmsə" mövzularında yazdığı "Fəraqnamə" və "Cəmşid və Xurşid" adlı iki məsnəvisi məlumdur. Şair məşhur "Cəmşid və Xurşid" əsərini Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasına nəzirə olaraq yazmışdır.

Xacu Kirmaninin "Xəmsə" mövzularına girişməsi onun təhsili və səyahətləri ilə əlaqədar həyatında baş verən təbəddülatlarla, mütaliə dairəsinin genişlənməsi və elmi-fəlsəfi və dini biliklərə yiyələnməsi ilə sıx bağlıdır.

*Xacunun Kirmanı tərk etməsi haqqında "Divan"ındakı beytlərdə nümunələr diqqəti cəlb edir:*

تابکی خواجو توان بودن بکرمان پای بند
سر بر آور همچو ایَّوب و ز کرمان در گذر

*(Xacu,1995,s. 231)*

*Nə qədər, Xacu, Kirmanda ayağı bağlı tab gətirəcəksən,*
*Əyyub kimi başını çıxart və Kirmandan keç.*

*Yaxud:*

میل خواجوهمه خود سوی عراقست مگر
صبر ایَّوب خلاصی دهد از کرمانش

*(Xacu, 1995, s. 254)*

*Xacunun öz meyli tamam İraq tərəfədir, məgər*
*Kirmanından Əyyub səbri ilə xilas tapar?*

Şair 1318-1336-cı illərdə Xuzistan və Azərbaycana səyahət edir, Təbriz, İsfahan, Həmədan şəhərlərini gəzir. Oradan Ərəbistana - Hicaza gedir. "Divan"ında yazır:

صبر ایُّوب کسی را که نباشد در رنج
حذر از محنت کرمان نکند چون نکند
چون درین مرحله خواجو اثر از گنج نیافت
ترک این منزل ویران نکند چون نکند

*(Xacu, 1995, s. 180)*

*Bir kəsin ki, əzab içində Əyyib səbri olmaya,*
*Kirman möhnətindən həzər etməsin, necə etməsin?*
*Bu mərhələdə indi ki, xəzinədən əsər tapmadı Xacu,*
*Bu viran mənzili tərk etməsin, necə etməsin?*

Xacu Kirmani öz səyahətlərində dövrünün görkəmli sufi şeyxlərilə görüşür ki, bu da onun dümyagörüşünün inkişafında mühüm rol oynamış olur. Şairin mürşidiyyə təriqətinə mənsub olduğunu, Şeyx Əbu İshaq Kazeruninin müridi olduğunu tədqiqatçılar qeyd etmişlər. Abdürrazak Türk "Ərzurumun qəndilləri" əsərində Əbu İshak Kaziruni haqqında məlumat verərək yazır: *"Ebu İshak künyesiyle ve Kazeruni nisbesiyle meşhur olmuştur. M.963, h.352 senesi Ramazan ayının yarısına rastlayan Pazartesi günü Şiraz civarındaki Kazerun kasabasında dünyaya geldi. Miladi 1034, h. 426 Senesinde Kazerunda vefat etti. Kabri- şerifleri oradadır"* (Abdürrazak, 2014, s. 288). Xacu özü "Divan"ında Şeyx Əbu İshaq Kazirunini yad edərək yazmışdır:

نوازشی بکن از اصفهان که گشت روان
از آب دیده ما زنده رود سوی عراق
کمال رتبت خواجو همین قدر کافیست
که هست بنده ئی از بندگان بواسحق

*(Xacu, 1995, s. 264)*

*Bir nəvaziş göstər İsfahandan ki, yola düşüb*
*Bizim göz yaşımızdan İraq tərəfə çay axır.*
*Xacunun kamali-rütbəsi o qədərdir (artıqdır)*
*Ki, bəndəlikdə Əbu İshaqın bəndəsidir.*

B. Quluyeva "Xacu Kirmaninin "Samnamə" və "Humay və Humayun" poemaları" (2010) monoqrafiyasında Əbu İshaq Kaziruninin təxəllüsləri, mənsub olduğu sufi- Mürşidiyyə təriqəti, Şeyxin müridi Şeyx Əmin əd-Din Məhəmməd Bolyani haqqında, eləcə də Xacunun öz mürşidinə həsr etdiyi qəsidə və tərcibənd haqqında məlumat verərək yazır: *"Mürşidiyyə ordeninə və onun qurucusu olan Şeyxə xüsusi hörmətinə görə Xacu Mürşidi nisbəsini almışdır" (Quliyeva, 2010, s. 38).*

Xacunun ikinci mürşidi olan Şeyx Əlaüddövlə Simnani (1261-1336) Kübravilik təriqətinin mürşidlərindən olmuşdur. Artıq qeyd etdiyimiz kimi, Xacu Simnanda, Sufiabad kəndində yaşarkən, Şeyx Əlaüddövlə Simnaninin təlimi sayəsində Ələvi görüşlərinə yiyələnmiş və bu şeirlərində görünməkdədir. Rübailərinin birində "Hər kim ki, Əli İmrani ilə olsa, Xızr kimi dirilik suyuna çatar" söyləyən Xacu Kirmani صنایع الکمال - adlı Divanında Həzrət Əliyə 70 beytdən ibarət qəsidə və "Kamalnamə" əsərində də ona çox gözəl məzmunlu bir hekayə ithaf etmişdir ki, müvafiq fəsillərdə bu haqda geniş bəhs etmişik.

Xacu Kirmani Kəbəni ziyarət etdikdən sonra Bağdad şəhərinə gəlir. 1331-32-ci illərdə Bağdad ədəbi mühiti şairin həyatında mühüm iz buraxmışdır. Burada dövrünün məşhur sufi şeyxlərilə görüşmüş həyatına və yaradıcılığına Bağdad ədəbi mühitinin mühüm rolu olmuşdur. "Risalətül-Badiye"sində üzünü qüds aləminə tutub. Müqəddəslərlə ülfət bağladığını və hicaz məqsədilə İraqın böyüklərilə səfərə çıxdığını söyləyir. Həmədan, Nəhavənd, Təbriz, Hicaz adlarını "Divan"ında tez-tez işlədir. "Bu möhnətli yeri tərk elə və Dəclə kənarını, Bağdad yolunu tut". Xüsusi qeyd etmək lazımdır ki, şairin "Badiyə risaləsi"nin elmi-tənqidi mətni Tehran Universitetinin şərqşünas alimləri doktor Məhəmməd Şadruyi Münş və doktor Mahnud Abidi tərəfindən hazırlanaraq 2020-ci ildə ilk dəfə Tehranda çap olunmuşdur. Şair "Badiyə risaləsi"ndə yazır:

*بود مرا همچو نسیم بهار*
*هرزه روی در شب و شبگیر کار*
*گه ز عجم سوی عرب تاختن*
*گه ز عرب ساز عجم ساختن*

*(Xacu, 2020, s. 20)*

*Mənim işim bahar yeli kimi,*
*Gecələri hərzə gəzib dolaşmaq oldu-*
*Gah Əcəmdən Ərəb tərəfə yüyürmək,*
*Gah Ərəbdən Əcəm sazı düzəltmək.*

Xacu Kirmani "Xəmsə" halqasından ilk məsnəvisini- "Humay və Humayun" 1332-ci ildə Bağdadda qələmə almışdır. Məhəmməd Olcaytının oğlu, 9-cu Elxani hökmdarı və Xorasan valisi Əbu Səid Bahadır xana həsr olunmuş bu əsərin mövzusu türk xalq dastanlarından alınmışdır. A.Krımskinin qeyd etdiyi kimi, Xacu Kirmani *"50 yaşına qədər Hülakilərə (Elxanilərə) sədaqətlə xidmət etmiş və 1332-ci ildə, yəni Əbu Səidin ölümündən üç il əvvəl, özünün romantik əsərlərindən birini Bağdadda ona həsr etmişdir" (Krımski, 1909, s. 103).* Lakin Xacu Kirmaniyə "Humay və Humayun" əsərini Əbu Səidin özünə təqdim etmək nəsib olmamış, Əbu Səid Bahadır Xanın ölümündən (1335) sonra Təbrizə gələn şair poemanı onun xələfinə - hakimiyyətdə olan Arpa xana təqdim etmişdir. Lakin az sonra Arpa xan 15 may 1336-ci ildə qətlə yetirilmişdir. Görünür, bu zaman Xacu Kirmani hələ Təbrizdə imiş və Arpa xanın ölümünə mərsiyə həsr etmişdir.

Zəbihulla Səfa Xacunun məmduhları və mədhiyyə yazdığı hökmdarlar haqqında məlumat vermişdir. Onun yazdığına əsasən*, "Xacu Kirmani öz dövrünün padşahlarından Sultan Əbu Səid Bahadıra (h. 732), Əbu Səidin canişini Arpa xan Buğaya (h. 736), Cəlayiri hökmdarı Şeyx Həsən Elxani və onun xanımı Dilşad xatuna (h.757), Cəlaləddin şah Məsud İncuya (h.758) və onun qardaşı Hörmüz hökmdarı Məlik Qütbəddinə mədhiyyə yazmışdır" (Zəbihulla, 1980, s. 896).*

Cərun (Benderab-bas) hökmdarı Hörmüz Təhəmtən bin Turan şaha yazdığı mənzum bir məktubdan bəlli olur ki, şair Təbrizdən sonra bu ölkədə də olmuşdur. 1338-ci ildə Xacu vətəni Kirman şəhərinə dönür və ömrünün qalan hissəsini Kirman və Şirazda keçirir. Xacu Kirmani " Gül və

Novruz" məsnəvisini Şirazda moğol hakimiyyəti illərində, yəni Əbu İshaq İncunun zamanında, 1241-ci ildə yazmışdır.

Səid Niyaz Kirmani və Bastani Parizinin araşdırmalarına əsasən, Xacunun Şiraza, Əbu İshaq İncunun sarayına getməsi - *"Əbu İshaqın vəziri və Xacunun həmyerlisi İmaməddin Mahmud Kirmaninin dəvəti ilə olmuşdur" (Səid Niyaz, 1991, s. 22).* Səyahətlərindən sonra saray mühitində yaşamaq məcburiyyətində qalan şairin dövrün hökmdarlarına ithaflar etməsi təbiidir.

Şairin bu dövrdəki həyatı və ədəbi mühitini şərh edərək Aqafangel Krımski yazırdı: *"...Hafiz, Übeyd Zəkani və Heydərin olduğu ədəbi dairədə qoca Xacu Kirmani də məskunlaşaraq yaşamış və onlarla birgə mədhiyyələr yazmışdır. Onlardan fərqli olaraq, Xacu Şirazın fars – Müzəffərilərin əlinə keçməsinə qədər yaşamadı, lakin bu sülaləni çoxdan tanıyaraq tərənnüm etmiş və münasibətləri qorumuşdu" (Krımski, 1909, s. 104).*

Məlumdur ki, Elxanilər tənəzzülə uğradıqdan sonra, 1344-cü ildə həm Təbrizdə, həm də Şirazda gərgin bir vəziyyət yaranmışdı. Hakimiyyət uğrunda kəskin mübarizə gedirdi. *"Şeyx Həsən Elxaninin ölümünü eşidən əmirlər Şiraza yürüşü təxirə salıb, Təbrizə tərəf irəlilədilər. Onlar 1344-cü ilin mart ayında (Zülqədə, 744) Təbrizə yaxınlaşdılar" (Piriyev, 1978, s. 57).*

Həmin dövrdə yaranmış fürsətdən istifadə edərək Şirazda hakimiyyətə fars Müzəffərilər keçdi. Artıq yaşlannmış, saraydan başqa heç bir ümid yeri qalmayan Xacu Kirmaninin son poeması olan "Gövhərnamə" (1345) əsərini Müzəffərilərin vəziri, Nizamimülkün nəslindən olan Bəhaəddin bin Mahmuda ünvanlaması zəruri bir haldır.

## Nəticə

Mənbələrin və tədqiqatçıların verdiyi məlumatlara əsasən, Şərqin böyük filosofu və şairi Xacu Kirmani 1352-ci ildə Şirazda vəfat etmişdir. Onun qəbri İsfahan ilə Şiraz arasında yerləşən Allahuəkbər boğazındadır. Özünün söylədiyi kimi, "Nizami Gəncəvinin şirin kəlamlı şagirdi" olan Xacu Kirmaninin ecazkar sənəti dünya mədəniyyətinin söz xəzinəsində daim yaşayacaqdır.

## Ədəbiyyat


1. Abdurrezak, T. (2014). *Erzurumun kandilleri* (I basım). Arı Sanat Yayınevi.
2. Dövlətşah, S. (2002). *Təzkirətüş-şüəra* (M. Abbasi, təsh. və təh.).
3. Guliyeva, B. (2010). *Poemy Xadju Kermani "Samname" i "Xumay i Xumayun"*. Elm və Təhsil.
4. Kuhi Hüseyn. (1927). *Montəxəb-e əz divan-e ğəzəliyyat-e Xacu-ye Kirmani* (Çap-e əvvəl). Xavər mətbəəsi.
5. Krymskiy, A. E. (1909). *İstoriya Persii, ee literaturı i dervişeskoy teosofii* (C. 3).
6. Nəzmi, Ə. T. (1989). *Devist soxənvər (Təzkire-ye əl-şüəra-ye mənzum o mənsur)*. Suruş.
7. Nəfisi, S. (1928). *Tarix-e nəzm o nəsr-e İran dər zəban-e farsi* (2 cild).
8. Niyaz, S. (1991). Moqəddeme. In *Xəmse-ye Xacu-ye Kermani*. Daneşqah-e Şəhid Bahonar, 1-30.
9. Piriyev, V. (1978). *Azərbaycan Hülakülər dövlətinin tənəzzülü dövründə (1316–1360-cı illər)*. Elm nəşriyyatı.
10. Xacu. (1971). Moqəddeme (Ayni Kamal). In *Qol o Nouruz*.
11. Xacu. (1991). *Xəmse* (S. Niyaz Kermani, təsh. və moq.). Daneşqah-e Şəhid Bahonar.
12. Xacu. (1995). *Divan-e ğəzəliyyat-e Xacu-ye Kermani* (H. Məzhəri, haz.).
13. Xacu. (2020). *Rəsail-e Xacu* (M. Şadruyi Münşi & M. Abidi, moq., təsh. və təliq.). Miras.
14. Zəbihulla Səfa. (1980). *Tarix-e ədəbiyyat dər İran* (C. 3). University of Tehran Press.


Daxil oldu: 25.11.2025
Qəbul edildi: 01.02.2026